***Azərbaycan Respublikasının***
***Auditorlar Palatası Şurasının***
***2024-cü il 25 noyabr tarixli 370/3***
***nömrəli qərarı ilə təsdiq edilmişdir***

# Azərbaycan Respublikası Auditorlar Palatasının İctimai Nəzarət Komitəsi haqqında ƏSASNAMƏ

## I. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə"yə, digər qanunvericilik aktlarına və Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən təsdiq edilmiş normativ-metodiki sənədlərə uyğun hazırlanmışdır.

1.2. Əsasnamə Auditorlar Palatasının İctimai Nəzarət Komitəsinin (bundan sonra – Komitə) fəaliyyət qaydasını müəyyən edir.

1.3. Komitə öz səlahiyyətlərini Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Auditorlar Palatası Şurasının qərarlarına, Palata sədrinin əmr və sərəncamlarına və bu Əsasnaməyə uyğun həyata keçirir.

1.4. Komitənin tərkibi sədr (Auditor təşkilatlarının nümayəndəsi), sədr müavini (Auditor təşkilatlarının nümayəndəsi) və 4 nəfər üzvdən (1 nəfər Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, 1 nəfər Auditor təşkilatlarının nümayəndəsi və 2 nəfər Sərbəst auditorların nümayəndəsi) ibarət olmaqla Palata sədrinin təqdimatı əsasında Şura üzvləri tərəfindən təsdiq edilir və ictimai əsaslarla fəaliyyət göstərir. Komitənin tərkibinə edilən dəyişikliklər Auditorlar Palatası sədrinin təqdimatına əsasən Şuranın qərarı ilə müəyyən edilmiş qaydada təsdiq olunur.

1.5. Komitə bilavasitə və birbaşa olaraq Auditorlar Palatasının sədrinə tabedir və onun qarşısında hesabatlıdır. İllik fəaliyyət hesabatları müzakirə üçün Palatanın Şurasına təqdim edilir.

1.6. Komitə öz fəaliyyətini qanunçuluq, şəffaflıq, hesabatlı olmaqla kollegiallıq və qərəzsizlik prinsipləri əsasında qurur.

1.7. Komitənin üzvlərinin səlahiyyət müddəti 5 (beş) ildir.

1.8. Palata sədrinin təqdimatı əsasında Şura üzvlərinin səs çoxluğu əsasında qəbul etdiyi komitə üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilə bilər.

## II. İctimai Nəzarət komitəsinin məqsədi

2.1. Komitənin məqsədi əsasən aşağıdakılardan ibarətdır:

2.1.1. Müşahidə və nəzarətin həyata keçirilməsi üzrə:

- Palatanın idarə və şöbələri, ictimai əsaslarla yaradılan komitə və komissiya tərəfindən göstərilən fəaliyyətlərinin auditor xidmətinin tənzimlənməsi və təşkili istiqamətində normativ hüquqi aktlarda və onların əsasnamələrində müəyyən edilən kimi həyata keçirilməsi üzrə (kollektiv-yəni Palatanın üzvlərin və digərlərin iştirakı) müzakirələrin, dinləmələrin keçirilməsi və müvafiq tövsiyyələrin verilməsini həyata keçirir;

- sərbəst auditor və auditor təşkilatlarının fəaliyyətlərində şəffaflığın, əhatəlilik və hesabatlılığın təmin olunması üzrə kənar müşahidələrin aparılması;

- keyfiyyətə nəzarət, dempinq və haqsız rəqabətə qarşı mübarizə istiqamətində sərbəst auditor və auditor təşkilatlarının mövcud standartlara və qüvvədə olan qanun və qaydaların tələblərinə riayət edilməsi, həmçinin, tapşırıqları bu cür standartlara və tələblərə uyğun yerinə yetirirlməsi üzrə müşahidələrin keçirilməsi və nəticələr əsasında Palata sədrinə məlumat vermək;

- auditin aparılması zamanı sərbəst auditorlar və auditor təşkilatları tərəfindən aşkar olunan pozuntu və nöqsan barədə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunan orqana (quruma) məlumatın verilməsinə və qanunda nəzərdə tutulmuş digər vəzifələrin icra olunmasına nəzarət etmək.

2.1.2. Təklif və tövsiyələrin hazırlanması istiqamətləri üzrə:

- auditor xidməti üzrə dayanıqlı əminliyi, hesabatlılığı və şəffaflığı artırmaq;

- auditor xidmətinin inkişafını və keyfiyyətinə nəzarət sisteminin dəstəklənməsi;

- daimi monitorinq və davamlı təkmilləşmə.

Komitə Palatanın struktur bölmələrindən, Şura yanında komitələr və komissiyadan, üzvlərdən müvafiq sənədlər (məlumatlar) əldə edir, müzakirələr, dinləmələr, müşahidələr həyata keçirir, müraciətlərdən, KİV-də və sosial şəbəkələrdə mövcud olan resurslardan istifadə edir və Palata sədrinə müvafiq təkliflər təqdim edir.

## III. İctimai Nəzarət komitəsinin hüquq və səlahiyyətləri

3.1. Komitə öz məqsədinə nail olmaq üçün aşağıdakı hüquq və səlahiyyətlərə malikdir:

- Palatanın struktur bölmələri, ictimai əsaslarla yaradılan komitələr və komissiya tərəfindən göstərilən fəaliyyətlərinin nəticələrini əks etdirən məlumatları almaq;

- Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitə tərəfindən keçirilən monitorinqin nəticələrini əks etdirən hesabatı əldə etmək, zərurət yarandığı hallarda digər məlumatların əldə edilməsini özündə əks etdirən müvafiq hesabat formalarını tələb etmək;

- Auditor xidməti göstərən şəxslər tərəfindən qanunvericiliyin pozulması halları ilə əlaqədar auditor fəaliyyətini həyata keçirmək hüququ verən icazənin dayandırılması və ya ləğv edilməsinə səbəb olması barədə Auditorlar Palatasının Şurasına təkliflər vermək;

- Palatanın cari ilin nəticələrinin fəaliyyəti, gəlirləri və xərcləri barədə rəyin bildirilməsi və növbəti il üçün tövsiyyələrin verilməsi;

- Palatanın ayrı-ayrı sahələri üzrə siyasət və daxili qaydaları barədə təkliflərin verilməsi;

- Risklərin idarə edilməsi sisteminin səmərəli fəaliyyət göstərməsi ilə bağlı təkliflərin verilməsi;

- Palatanın struktur bölmələrinin, komitələri və komissiyasının, habelə üzvlərinin fəaliyyəti üzərində, habelə, səmərəli fəaliyyət göstərməsinə həmkar nəzarətin (qiymətləndirmələrin) aparılması.

## IV. İctimai Nəzarət Komitəsinin sədri

4.1. Komitənin fəaliyyətini təşkil edir və onun işinə rəhbərliyi həyata keçirir.

4.2. Komitənin sədri aşağıdakı funksiyaları həyata keçirir:

- Komitənin üzvləri arasında iş və səlahiyyət bölgüsünü təmin edir;

- Komitənin iclasların çağırır və iclaslara sədrlik edir;

- Komitə adından sənədləri imzalayır və təsdiq edir;

- Komitənin fəaliyyət planını təsdiq edir;

- Komitənin iclaslarının protokollarının aparılmasını təmin edir, qərarlarının icrasına nəzarət edir;

- Komitənin ona vermiş olduğu səlahiyyətlər çərçivəsində digər funksiyaları həyata keçirir.

4.3. Komitə sədri olmadıqda onun funksiyalarını sədr müavini və ya sədri əvəz edən digər şəxs həyata keçirir.

## V. Nəzarət Komitəsinin fəaliyyətinin təşkili

5.1. Komitə öz fəaliyyətini növbəti və növbədənkənar iclaslar formasında həyata keçirir.

5.2. İclasların çağırılması barədə Komitənin sədri qərar qəbul edir.

5.3. Növbəti iclasın keçirilməsi barədə Komitənin üzvlərinə məlumat göndərilir.

Məlumatda: iclasın tarixi və vaxtı, iclasın yeri, iclasın gündəliyi, iclasın gündəliyinə dair təkliflərin təqdim edilməsinin son tarixi qeyd edilir.

Məlumat növbəti iclasın tarixinə ən azı 5 (beş) gün qalmış bildirilir.

5.4. Komitənin cari-gündəlik fəaliyyəti üzvlərin təklifləri nəzərə alınmaqla sadə səsvermə yolu ilə qəbul edilmiş qərarın sədr tərəfindən təsdiq edilməsilə həyata keçirilir.

5.5. Komitənin fəaliyyətində hər üzv bir səsə malik olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər bölündükdə sədrin (o olmadıqda isə sədr müavinin) səsi həlledici hesab olunur.

5.6. Komitənin qərarları protokol ilə rəsmiləşdirilir. Protokol sədr və üzvləri tərəfindən imzalanır.

5.7. İclasda müzakirə edilən məsələ ilə əlaqədar şəxsi marağı olan üzv iclasdan əvvəl bu barədə məlumat açıqlamalı, məsələ ilə bağlı müzakirədə və səsvermədə iştirak etməməlidir. Həmin şəxs məsələ müzakirə edilərkən iclas keçirilən otağı tərk etməlidir. Bu barədə qeyd iclas protokoluna daxil edilməlidir.

5.8. Komitənin üzvü iclaslarda şəxsən iştirak etməlidir. İclasda iştirak edə bilmədiyi təqdirdə o, Komitə sədrini əvvəlcədən yazılı surətdə məlumatlandırmalıdır.

5.9. İclasın dili Azərbaycan dilidir. Digər dillərdə təqdim edilən sənədlər müvafiq tərcümə ilə təmin edilməlidir.

5.10. Palatanın üzvləri, struktur bölmələrin rəhbərləri və digər əməkdaşlar komitə tərəfindən aparılan müzakirələrə, iclaslara (səs vermə hüququ olmadan) dəvət oluna bilərlər.

5.11. Komitə hər hansı icrası icbari olan qərar, göstəriş, tövsiyyə və.s hüquqi aktları qəbul etdikdə 3 gün ərzində Palata sədrinə təsdiq üçün göndərməlidir. Palata sədrinin dərkənarına əsasən gönədrilmiş sənədlər münasibət bildirilməsi üçün Şura yanında komitələrə və komissiyaya, digər struktur bölmələrinə və üzvlərə rəyə verilə bilər.

5.12. Komitə tərəfindən təsdiq edilmiş qərar, göstəriş, tövsiyyə və.s hüquqi aktları yalnız Palata sədrinin və ya Şurasının qərarları ilə ləğv edilə və ya dəyişdirilə bilər.

## VI. Yekun müddəalar

6.1. Komitənin fəaliyyətinin təşkili ilə əlaqədar bütün təşkilati və texniki məsələlər Komitənin katibi (katib Komitənin sədri tərəfindən müəyyən edilir) tərəfindən həyata keçirilir.

6.2. Bu Əsasnamə Palatanın Şurası tərəfindən təsdiq edildiyi gündən qüvvəyə minir.